# Yeniyetmələrdə təlim çətinliklərini törədən səbəblər və onların aradan qaldırılması yolları

**Gülnarə Həmzəbəyovna-Əlixanova**
*ADPU-nun Yaş və pedaqoji psixologiya kafedrasının baş müəllimi*
**E-mail:** gulnare.alixanova@mail.ru

**Rəyçilər:** psixol.ü.e.d., prof.Ə.T. Baxşəliyev,
psixol.ü.f.d., dos.Q.N. Qəhrəmanova

**Açar sözlər:** yeniyetmə, təlim çətinlikləri, psixi fəallıq, münaqişələr, dərs fəaliyyəti, mənimsəmə prosesi, özünüqiymətləndirmə

**Ключевые слова:** подросток, трудности обучения, психическая активность, конфликты, учебный деятельности, процесс присвоении, самооценивание

**Key words:** teenager, learning difficulties, mental activity, conflict, learning activity, process of appropriation, self-evaluation

Yeniyetməlik yaşı dövrü ümumi ontogenezdə inkişafın mühüm mərhələlərindəndir. Bu yaş dövrü insan həyatının ən böhranlı çağlarıdır. Həyat perspektivləri və ideallarının, peşə niyyəti və mənlik şüurunun formalaşması ilə əlaqədar olaraq yeniyetməlik dövründə təlimin yeni motivləri əmələ gəlir.

Psixoloqlar L.İ.Bojoviç, A.N.Leontyev, A.B.Petroviç, D.İ.Feldşteyn və b. yeniyetməliyi yaş dövrünün bir mərhələsi kimi yox, psixi inkişafın, uşaqlıqdan gəncliyə keçidin mühüm bir mərhələsi kimi nəzərdən keçirirdilər. Hələ vaxtında Hegel uşaqlığı “özündə varlıq”, gəncliyi isə “özü üçün varlıq” adlandırırdı. Yeniyetmə “özündə varlıq” mərhələsini başa vursa da, hələ “özü üçün varlığa” çevrilməmişdir. Bu yaş dövründə bu iki anlayış vəhdət təşkil etmir. Yeniyetməlik dövründə şagirdin sosiallaşması prosesi sürətlənir, bu prosesdə o, yeni sosial mövqe qazanır, onda özünə və başqalarına qarşı şüurlu münasibət yaranır (3, s. 45).

Bu dövrdə aparılan tədqiqatların mühüm bir istiqaməti də yeniyetmələrin təlim çətinliklərinin psixoloji xüsusiyyətləri probleminin araşdırılması ilə bağlıdır. Ə.Y.Seyidov, M.M.Mehdizadə, F.Ə.İbrahimbəyov, Ə.K.Zəkizadə, Ə.S.Bayramov, Ə.Ə.Qədirov, Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev və b. bu sahənin inkişaf etdirilməsində önəmli işlər görmüşlər. Təlim motivləri sahəsində tədqiqat aparan rus alimləri L.İ.Bojoviç, N.Q.Morozova, L.S.Slavina təlim motivlərini öz məzmunlarına görə yaxın olan bir neçə qrupa bölürlər:

**1.** Oxumağın, təhsil almağın zəruriliyini göstərməklə bağlı motivlər; 2. Məktəblinin vəzifə və borcunu göstərməklə bağlı motivlər; 3. Gələcək peşə fəaliyyəti üçün təhsilin zəruriliyini göstərməklə bağlı motivlər; 4. Təlim prosesinin, biliyin özünə marağın olduğunu göstərməklə bağlı motivlər; 5. Valideynlərin uşağı oxumağa təhrik edən və ya hətta məcbur edən tələbi ilə bağlı motivlər; 6. Müəllimin tələbi və ona hörmətlə bağlı motivlər; 7. Öz nüfuzunu gözləməklə bağlı motivlər; 8. Qrup təlqini, qrup təzyiqindən yaxa qurtarmaqla bağlı motivlər; 9. Müqabilində nəyi isə gözləməklə bağlı motivlər və s.

Bu cür motivlər bütün məktəb yaşı dövrlərindəki təlim fəaliyyətində özünü göstərir. Şagirdlərdə təlim fəaliyyətinin müsbət motivləşmə sahəsini yaratmaq asanlıqla baş vermir. Şagirddə öz müvəffəqiyyətlərini və getdikcə özünün əqli fəaliyyətini təkmilləşdirmək imkanlarını dərk etmək zəruri təlim motivlərinin və oxumaq həvəsinin meydana gəlməsi üçün

əsas şərtdir (1, s. 121)

Dərsdə sinfin fəallığı müvəffəqiyyətin təzahürü və sinifdəki hər bir şagirdin fəallığı deməkdir. Dərsdə şagirdin fəallığını təmin etmək üçün onun fəaliyyətində baş verən qüsurları dərhal aradan qaldırmaq və təlim prosesini daha səmərəli qurmaq zəruridir. Dərs prosesində müəllim elə hərəkət etməlidir ki, onun baxışı da, duruşu da, danışığı da, iradları da, rəğbəti də şagirddə böyük ruh yüksəkliyi yaratsın, ona yeni qüvvə versin. Şagirdi təlimə alışdırmağın "Piqmalion effekti" adlanan üsulu isə yaşlının inamında və səbrlə gözləməsində özünü göstərir. Bununla belə şagirddə təlimə marağı güclə inkişaf etdirmək olmaz.

Tədqiqat məqsədilə aparılmış "Sən nə üçün oxuyursan? Səni oxumağa məcbur edən nədir?" və s. bu tipli suallara cavab verərkən məktəblilər təlim fəaliyyətindəki müxtəlif çətinlikləri qeyd edirlər. İlkin olaraq yeniyetmələrdə təlim çətinliklərinin hansı səbəbdən və nə vaxtdan baş verdiyi aydınlaşdırmalıdır. Sorğunun nəticələrini bu cür ümumiləşdirilir:

— Müəllimlərlə münaqişələr; Sinif yoldaşları və həyət uşaqları ilə münaqişələr; Valideynlərlə münaqişələr; Əvvəllər aldığı biliklərdə sistemliliyin olmaması; Ev tapşırığını yerinə yetirə bilməmək çətinliyi; Yeniyetməni təhsildən yayındıran faktorlar: kompyuter, televizor, telefon əyləncələr və s. Çalışmaq istəyinin olmaması; Ailədə münbit şəraitin olmaması; Təlim fəaliyyətinə motivasiyanın olmaması; Diqqətin və yaddaşın inkişafına aid olan problemlər; Şəxsi problemlər; Uşağın məktəb təliminə hazır olmaması; Uşaqda xroniki xəstəliklərin mövcudluğu; Pedaqoqun professional olmaması; Müəllimlərin yersiz danlağı və s.

Şagirdlərdə ünsiyyət bacarıqlarının formalaşması və şəxsiyyətin inkişafı, yalnız dərslərdə deyil, uşağın məktəbdə olduğu müddətdə həyata keçirilməlidir. Dərs zamanı yaranan "müəllim-şagird", "şagird-şagird", "şagird-valideyn" ünsiyyətinin inkişaf koordinatları mütləq şəkildə nəzərə alınmalıdır (4, s. 209).

Valideynlər uşaqlarının necə oxumalarına nəzarət edərkən onun üçün hansı tədris fənninin çətin olduğunu daha yaxşı görürlər. Buna görə də müəllimlərlə birlikdə vaxtında vəziyyətdən çıxış yolu tapmaqda dialoq apara bilərlər. Valideynlər uşaqlarının təlimdəki bu və ya digər nöqsanlarını da görürlər. Məktəblinin təlimə fəallığının zəifləməsinə çox ciddi yanaşmaq lazımdır.

Uşaq evdə hiss etməlidir ki, bütün ailə, həm böyüklər, həm də uşaqlar "İşin iş vaxtı, istirahətin istirahət vaxtı" prinsipinə əməl edir: yalnız bütün vacib vəzifələr yerinə yetirildikdən sonra, yəni, məktəbli dərslərini hazırladıqdan sonra istirahətdə və ya digər əyləncə ilə məşğul ola bilər. Əsas məsələ tapşırığı başa düşməkdən, onun diqqətini praktik məsələlərə cəlb etməkdən, uşağın üzərində qavramadığı tədris materialını canlandırmaqdan, öz qüvvəsinə inamını möhkəmləndirməkdən ibarətdir (4, s. 309). Hesab edirik ki, valideynlər üçün məqsədyönlü tövsiyələrin hazırlanması və bu əsaslar üzərində qurulması əhəmiyyətli olar:

— Təlimdə çətinliyin müzakirəsi zamanı valideynlər uşaqlarının məktəb problemlərinə, onların fikir və hisslərinə böyük maraq ifadə etməlidirlər;

— Valideynlər uşaqla isti və səmimi dostluq əlaqəsi qurmaqla, ondakı təşəbbüskarlığı genişləndirməklə, uşağını mütəmadi olaraq məktəb problemlərinə görə danlamamağa çalışmalıdırlar;

— Valideyn öz uşağı ilə qarşılıqlı ünsiyyətində ona lazım olan təşəbbüskarlığı vaxtında ötürmək üçün iki tərəfli qarşılıqlı dialoqu dəstəkləməyə çalışmalıdır;

— Valideynlər ailədə, uşağın təlimdəki çətinliklərə münasibətini və davranışını nəzərə alaraq, qarşılıqlı anlaşma, dəstək və şagirdin təşəbbüskarlığını, rəğbətləndirmə şəraitini

yaratmaqla köməklik göstərməlidir.

Yeniyetmənin yaxın yoldaşları və dostları ilə ünsiyyəti onun təlim fəaliyyəti və marağına güclü təsir göstərir (5, s. 297). Məktəb psixoloqunun təlim çətinlikləri problemlərinə aid olan proqramında valideynlərlə yanaşı şagirdlərin bir-biri ilə ünsiyyətinə dair bəndlərin də nəzərdə tutulması vacibdir:

— Uşaqlar müəllimin rəhbərliyi ilə bir-birləri ilə konstruktiv dialoqa girməyə alışdırılmalıdırlar: öz fikrini konkret deyə bilmək, tənqidi axıradək dinləmək, başa düşmək, həmsöhbətinin nəzər nöqtəsini qəbul etmək, anlamağı bacarmaq və s.;

— Oyunda və problemli situasiyaların həllində ünsiyyətin dialoji və monoloji formalarına yiyələndirmək;

— Şagirdləri başqasının vəziyyətini anlamağı, sinifdə müsbət, emosional – normal fonu dəstəkləməyə alışdırmaq;

— Şagirdlərin dərsdə yaradıcı tapşırıqları yerinə yetirmələri zamanı (oyun, səhnələşdirmə, emosional pauzalar və s.) bir-birilərinə kömək etməyə alışdırmaq;

— Kollektiv (qrupla) tapşırığın yerinə yetirilməsi zamanı öz aralarında rol və tapşırıqların düzgün bölüşdürülməsinə nail olmaq və s.;

Aparılan tədqiqatlara görə, sinifdə işgüzar və səmimi mühit yaratmaqla təlim çətinlikləri olan yeniyetmə şagirdlərə hər dəfə bu və ya digər işi sona yetirməməyin sonluğunu və nəticəsini başa salmaq böyük əhəmiyyət kəsb edir. Təlim materiallarının verilməsində sinifdəki uşaqların sayına görə daha rasional üsullar fikirləşib, tətbiq edilməsi uşaqlarda təlim maraqlarının inkişafına təkan verir. Bu məqsədlə frontal, qrup və fərdi işin əlaqəli formalarını nəzərdən keçirilməsi problemin həllində real göstəricidir.

Təlim çətinlikləri olan yeniyetmə şagirdlərlə öyrənilən materialın asanlaşdırılmasını təmin etmək üçün, mütəmadi olaraq şagirdlərə öyrənilən mövzunun praktik əhəmiyyətinin əyani olaraq göstərilməsi, şagirdlərdə maraq doğuran mövzuların öyrənilməsinə ayrılan dərs saatlarının artırılması, fənlərarası və fəndaxili əlaqələrin gücləndirilməsi; şagirdlərin dərsdə müstəqil işlərinin yerinə yetirilməsinin yeni formalarının işlənib hazırlanması, nümayişetdirici vəsaitin müvafiq qaydalara uyğun tərtib edilməsi və uşaqlara onun məqsədyönlü şəkildə təhlilinin verilməsi və s. onların gələcək həyata hazırlıq mərhələsi kimi böyük əhəmiyyət daşıyır.

Proqram materialın mənimsənilməsinə nəzarətin gücləndirilməsi, hər bir rübün axırı və ilin sonu təlim proqramının öyrənilməsi səviyyəsinin təhlil edilməsi təlim çətinlikləri olan yeniyetmə şagirdlərlə aparılan təlim fəaliyyətinin səmərəliliyinə xidmət edir. Müəllim təlim çətinlikləri olan yeniyetmə şagirdlərlə dərs fəaliyyəti zamanı qarşıya qoyulan tapşırığın məqsədini anlamalı və müəyyənləşdirməli, hərəkətlərinə nəzarət etməli, alınan nəticələri qiymətləndirməli və s. bacarıq və vərdişlərini daha da inkişaf etdirməyə çalışmalıdır. Şagird təlim prosesinin fəal iştirakçısıdır. Müəllim bu məqsədlə dərs prosesi zamanı müxtəlif situasiyaları modelləşdirərək yeniyetmə şagirdlərlə mövcud davranışı müəyyənləşdirməlidir. O, hər bir şagirdə özünəhörmət və adekvat özünüqiymətləndirmənin formalaşmasına təsir edən münbit şəraiti yaratmağa çalışmalıdır.

**Məqalənin aktuallığı.** Aktuallıq yeniyetmələrin təlim çətinliklərinin psixoloji xüsusiyyətlərinin əsas təzahürlərini müəyyənləşdirmək, müasir psixologiyanın elmi-nəzəri tələbləri səviyyəsində həmin problemlərin təhlilini verməkdən ibarətdir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik isə yeniyetmələrin təlim çətinliklərinin psixoloji xüsusiyyətləri probleminin təhlili, yeniyetmələrin özünüdərk etməsinə, müsbət xüsusiyyətlərlə yanaşı nöqsan və çatışmazlıqlarına da yaxından bələd olmağa köməklik

göstərmək yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

## Ədəbiyyat

1. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı: Adiloğlu, 2001.
2. Əliyeva H.İ. Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu. Monoqrafiya. Bakı: Elm və təhsil, 2009.
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: 2010.
4. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
5. Локалова Н.П. Школьная неуспеваемость: причины, психокоррекция, психопрофилактика. СПб: Питер, 2009.

**Г. Алиханова**

## Причины трудностей в обучении подростков и пути их устранения

## Резюме

Актуальность выбранной темы продиктована тем что, неуспешным школьник становится только тогда, когда вовремя не были преодолены “школьные трудности”, под которыми понимается весь комплекс проблем, возникших у ребенка при систематическом обучении и постепенно приводящих к ухудшению состояния, здоровья, к нарушению социально-психологической адаптации и только в последнюю очередь - к снижению успешности обучения». Ребенок должен хотеть учиться, понимать, зачем ему это нужно, иметь базовые знания и умения, уметь общаться со сверстниками и взрослыми, быть физически и психически здоровым.

**G. Alikhanova**

## Causes of teenage learning difficulties and ways to eliminate them

## Summary

The relevance of the chosen topic is dictated by the fact that the schoolboy becomes unsuccessful only when the “school difficulties” were not overcome in time, which means the whole complex of problems that the child has with systematic training and gradually leading to a deterioration of the state, health, to the violation of the socio-psychological adaptation and only in the last instance – to a decrease in the success of training”. The child should want to learn, understand why he needs it, have basic knowledge and skills, be able to communicate with peers and adults, be physically and mentally healthy.